# Turizm regionlarda sürətlə inkişaf edir



**Turizm mühüm gəlir mənbəyidir. Bu sahənin gəlirləri bir sıra inkişaf etmiş ölkələrdə dövlət büdcəsinin formalaşmasında həlledici faktordur. Turizm mövsümünün ilboyu davam etməsindən ABŞ, Böyük Britaniya, Çin, İspaniya, İtaliya, Türkiyə kimi ölkələrin dövlət büdcəsinə milyardlarla vəsait daxil olur. Bu gün Azərbaycan da turizm sahəsində uğurlu addımlar atmaqdadır.**

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində digər sahələrlə yanaşı, turizmin inkişafı da Prezident İlham Əliyev tərəfindən prioritet istiqamətlərdən biri kimi müəyyən olunub. Dövlətimizin başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, son illər respublikamızda müasir tələblərə cavab verən turizm infrastrukturunun yaradılması istiqamətində çox mühüm işlər görülür. Bunun nəticəsidir ki, ötən il Azərbaycana rekord sayda turist gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın birinci ilinin yekunlarına həsr olunmuş müşavirədə turizmin inkişafına təsir göstərən əsas amillər barədə danışarkən demişdir: " Ən müasir nəqliyyat infrastrukturu – Heydər Əliyev Beynəlxalq Aeroportu, dediyim kimi, beşulduzlu aeroportdur. Bundan başqa turistlərin daha çox gəldikləri yerlərdə də 5 beynəlxalq aeroport var. Həmçinin gözəl otellər var. Azərbaycanda dünyanın bütün aparıcı otellərinin brendləri fəaliyyət göstərir. Onlar nəyə görə buraya gəliblər? Niyə başqa ölkələrə getmirlər? Çünki ölkəmizdə sabitlik var, inam var, vəziyyət proqnozlaşdırılandır və investisiya mühiti, kredit reytinqlərimiz yaxşıdır."



Dövlət başçısı onu da diqqətə çatdırıb ki, bizim tarixi yerlərimizi, tarixi kəndlərimizi turizm zonasına çevirmək üçün praktiki addımlar atılır. Qış turizminin inkişafı, Şahdağ xizək kompleksinin gələcək inkişafı ilə bağlı göstəriş verilmişdir.

Ötən il Bakı ilə yanaşı regionlarımıza da turistlərin cəlb edilməsi istiqamətində məqsədyönlü iş aparılmışdır. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda turizmə məxsusi diqqət yetirilmişdir. Sənəddə deyilir ki, regionlarda müxtəlif turizm növlərinin inkişafının dəstəklənməsi, o cümlədən turizm sahəsində göstərilən xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılmasına diqqət artırılacaq. Dövlət başçısı regionların sosial-iqtisadi inkişafı proqramının birinci ilinin yekunlarına həsr olunan konfransda bir daha vurğulamışdır: " Bu gün mənə məlumat verildi, bu ilin yanvar ayında 2019-cu ilin yanvar ayı ilə müqayisədə turistlərin sayı 18 faiz artıb. Özü də turistlər üçün o qədər də cəlbedici olmayan yanvar ayında. Keçən il 11 faiz, ondan əvvəl 4 faiz, ondan əvvəl 24 faiz, ondan əvvəl 22 faiz, ardıcıllıqla. İndi ancaq yanvar ayında 18 faiz. Ona görə hesab edirəm ki, əgər keçən il ölkəmizə 3 milyon 170 min turist gəlmişdisə, bu il daha çox gələcək". Əlbəttə, burada regionların da öz payı var.

Bu gün Azərbaycanın əksər bölgələrində turizmin inkişafı üçün geniş imkanlar yaradılır. Azərbaycanın qədim yaşayış məskənlərindən olan Qəbələ bu gün, həm də, ölkənin ən önəmli turizm mərkəzlərindən biri kimi tanınır. Müasir tələblərə cavab verən yeni otel və istirahət mərkəzlərinin istifadəyə verilib. Münasib qiymətlər, yenilənmiş yol infrastrukturu Qəbələyə turist axınının artmasını şərtləndirən başlıca amillərdəndir. Geniş turizm infrastrukturuna malik Qəbələ rayonu ilin bütün fəsillərində turistlərin diqqətini özünə cəlb edir. Turistlərin sayındakı artım, şübhəsiz ki, Qəbələdə yaradılan müasir turizm infrastrukturunun nəticəsidir.

Xaçmaz rayonun geniş turizm imkanları var. Rayon həm dəniz, həm də meşə turizminin inkişafı baxımından çox əlverişlidir. Hazırda Xaçmazda 32 turizm obyekti lisenziya ilə fəaliyyət göstərir. Rayonda hazırda mehmanxana və mehmanxana tipli 57 obyekt işləyir. Xaçmazda 62 tarixi abidənin olması rayonun turizm imkanlarını daha da artırır.

Quba-Qusar bölgəsində də ötən il turizm əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Bura həm qış, həm də yay turizmi üçün əlverişlidir. İlin bütün fəsillərində bu region turistər üçün cəlbedicidir. Burada əlverişli turizm strukturu yaradılmışdır.Təkcə Qubada 29 mehmanxana fəaliyyət göstərir.

Turistlər üçün cəlbedici məkan olan İsmayıllı rayonunun Lahıc kəndi dəniz səviyyəsindən 2500 metr yüksəklikdə yerləşir. Bu kənd daim öz sənətkarları ilə məşhur olmuşdur. Hər il Lahıca 8-10 min turist gəlir ki, onların da 80 faizi əcnəbilərdir. Bu rayonda müxtəlif millətlərin nümayəndələrinin birgəyaşayışı qonaqlarda maraq doğurur.

Qax və Zaqatala rayonlarının turizm imkanları kifayət qədər inkişaf etmişdir. Hazırda Qaxda yeddi, Zaqatalada isə altı turizm obyekti fəaliyyət göstərir.

Şəkidə də turizmin inkişafı üçün mühüm işlər görülmüşdür. Bunu rayona istirahətə gələnlərin sayında müşahidə olunan artımdan da görmək olur. Əgər 2004-cü ildə Şəkiyə 2800 turist gəlmişdisə, ötən il onların sayı 15 minə yaxınlaşmışdır.

Azərbaycanın ən səfalı bölgələrindən olan Şamaxı da turistlər üçün cəlbedicidir. Səfalı təbiəti ilə diqqəti çəkən Şamaxı rayonunda həm yay, həm də qış turizmi üçün geniş imkanlar vardır. Hazırda Şamaxıda 12 turizm obyekti fəaliyyət göstərir.

Ölkəmizin turizm potensialı kifayət qədər zəngindir. Bu imkanlardan səmərəli istifadə edərək Azərbaycanda turizmin daha da inkişaf etdirilməsi qarşıda mühüm vəzifə kimi durur.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 6 fevral.- S.5.